# SALAM-KALAMSIZ

*hekayə*



Funda Özsoy Erdoğan

*- müxtəlif nüansların birləşdiyi Həyat*

*(A.H.Tanpınar)*

- Bir gün bu qapını öz açarlarınla açmaq məcburiyyətində qalacaqsan, Emin. Və sənə "Xoş gəldin" deyən bir adam tapmayacaqsan bu evdə!

Kadıköy-Ortaçeşmə marşurutunda çalışan 15F avtobusu (Bu "F" nədir, görəsən?) Kandillidən sonra "Sevda Təpəsi" dayanacağına çatmamışdan əvvəl Emin bəy üçün qapılarını açmışdı. Bəlkə də bu qaş qabaqlı adamı salamlamaq, ona "xoş gəldin" demək istəmişdi.

- Bir gün bu qapını öz açarlarınla...

- Aman, ay ata! Görəsən, bu qapıdan girərkən sənə "xoş gəldin" deyənə "xoş gördük" desən, gülər üz göstərsən nə olar?!

Emin bəy ağzında gəvələdiyi, mənasını özünün də bilmədiyi sözlərin tərcüməsini yalnız qızına və arvadına deyil, özünə belə izah etməz. Bir tərəfinin əskikliyi, hər axşam evə gələndə onu qapıda qarşılayan arvadına "xoş gördük" deyərək tamamlaya bilməz.

Emin bəy nəinki Böyük Şəhər Bələdiyyəsinin yeni aldığı xaricdən gətirilən kondisionerli, şikəstlərin belə asanlıqla minə bildiyi avtobuslara, hətta köhnə avtobuslara belə çətinlik çəkmədən minə bilirdi.

Kandilliyə kürəyini söykəmiş "Sevda təpəsi"ni bir sevdalılar təpəsinə çevirən, ancaq ölümə aparan o böyük eşqin hekayəsini bilirdimi Emin bəy? Onunla belə söhbətlər etmək istəsəniz Emin bəyin hisslərinə əsir düşmüş insanlara göz qoyan adamlar istehzalı baxışlarına hazır olmalısız. O iyun sabahı "Sevda Təpəsi" dayanacağında gözləyərkən nəşəli quş civiltiləri və burnuna dolan ağac mehinin altında ona qollarını açaraq gələn avtobusa minərkən illərdi hiss etmədiyi bir duyğunu (deyəsən, təzə-təzə ailəqurmuşdu - iyirmi iki oldu evləndiyi...) - Şərqdə, dağların arasında məskən tutmuş qəsəbədə vəzifəsini icra edərkən qısa bir müddət sakitliyə, hüzura yaxın o duyğunu - eşq deyildi - hiss etmişdi.

Bir anlıq... Hətta bu hissə qapılıb sürücüyə "sabahın xeyir" belə deyə bilərdi. Amma heç bir vaxt ilk düşündüyünü həyata keçirə bilən insanlardan olmamışdı. Hər sözü ölçüb-biçib, düşünərək:

- Təəssüf ki, kartım yoxdu, pul versəm olar?

Sürücünün Emin bəyə müsbət cavabı yüngülcə baş hərəkəti ilə üzündə çiçəklənən təbəssüm oldu...

Emin bəy az qala maşınını təmirə verdiyi üçün Sağlıq Mərkəzinə avtobusla getmək məcburiyyətində qaldığına sevinəcəkdi. Avtobusa addımını qoyarqoymaz - əvvəlcə sol ayaq, iki əlinin köməyi il, başını güclə yana çevirib salona göz gəzdirdiyində bütün yerlərin tutulduğunu görmək belə onu əsəbiləşdirmədi.

Nadir də olsa belə maşınsız qalıb - işlənmiş Tempradan tutmuş sıfır km Focus-a kimi - avtobusa minmək məcburiyyətində qalanda ona mütləq yer verəcəklərini bilirdi. Hətta ağ saqqalı ağarmamış - qırx beş yaş nədir ki - istər gənc olsun, istər orta yaşlı olsun, bəzən yaşca ondan böyük olanlar belə yer verəndə onda minnət duyğusu oyanmazdı. Yaxşılıq etdiyini düşünən insanların üz cizgilərini Emin bəy əzbər bilirdi.

Hələ uşaq oyunlarına daxil edilməyəndə, yalandan qaşları çatılmış müəllimin müdaxiləçi üzündə, lisə illərində, həftənin sonunda pivə içib (hələ də pivəni sevməzdi) bəzi jurnallara baxmaq üçün (diksindiyini deyə bilməzdi) başqaları ilə birlikdə onu da evinə dəvət edən yoldaşlarının üzündə, sonra tibb fakültəsində, seyrək də olsa kinoteatrlarda, tələbə yeməkxanalarında görüşdüyü dostlarının əl-ələ tutduqları sevgililərinin (Özünün sevgilisi olduğu ağıla gəlməzdi, əlbəttə!) üzlərində gördüyü təbəssümlərindən bilirdi...

- Soruşmaq ayıbdır... Nə üçün oldu?

- Madam ayıbdır, soruşma!

- Anama qarşı niyə elə davranırsan, ata?! Yazıq qadın bütün günü yemək bişirir, paltar ütüləyir. Barı axşamdan-axşama... Ona qarşı bir az nəzakətli olmalısan!

Arvadına qarşı nəzakətli olmaq istəmirdi Emin bəy. Heç kimə qarşı nəzakətli olmaq istəmirdi. Ona görə də avtobusa minən kimi ön sırada əyləşmiş, yerini ona verən cavan oğlana təşəkkür etməyəcək! Kimsəyə minnətdar deyil. "Həyat, sənə minnətdar deyiləm... Həyat güllük-gülüstanlıqdı... Həyat, getmə, çox əzizsən... Həyat mən səni..."

Sonrakı dayanacaq İdman Akademiyası idi. Təzədən açılıb-bağlanan qapılar, kürəklərində idman çantaları olan şortikli qızlar, ədalı vücudlar, boy-buxurlu, sağlam nəsil...

- Körpənizin sağlığı üçün ona altı ay müddətində ana südü verin, peyvəndlərini mütləq vurdurun.

- Həkim, iynə vurduranda uşağın hərarəti qalxır.

Həkim Emin bəy qadının üzünə baxıb:

- Siz də belə olan halda uşağa qıc olma qorxusu keçirənə qədər hərarət salan dərman verin.

Emin bəyin qızı atasına baxdı:

- Mən bu gün, sabah universiteti bitirib bu evdən ayrılanda anamla ikiniz tək qalacaqsınız. Yaşlı vaxtınıza yatırım edin bir az, bir-birinizə yaxşı davranın, gülər üz göstərin!

Asuman xanım başını dik tutub:

- Bəlli olmaz, bəlkə mən də qızımla gedərəm. O zaman sən də səhərlər divarlara "sabahın xeyir" deyərsən, qapını öz açarlarınla açıb əşyalara "sabahın xeyir" deyərsən, Emin!

Boş sözlər! İçindəki zəhəri qus, Asuman xanım! (Qadınlar zəhərlidir!) Arvadının mətbəxə keçməsi, qızının otağının qapısını sərt örtməsi (bu qız yüngül olacaq deyəsən, əsl... əsl... ) əsl filmlərdəki lövhələri canlandırdı...

Bu qədər asandırmı qapını çırpıb getmək?! Mən adamı...

Emin bəyin qulağına yenə bir ürək məsafəsində dayanan bu sözlər - sözü deyənin incikliyi, əsəbi, peşmançılığını eyni anda bildirən bu sözlər ona bir gedişi, gedib də dönməməyi xatırlatdı:

- Emin, bilirsən, anan səni atıb gedib!

Asumanın səsində, böyük açılmış qəhvəyi rəngli gözlərində nə istehza, nə başqasını aşağılama vardı. Amma bibisi Asumana səsini yüksəltdi:

- Sən içəri gir, mən deməsəm bayıra çıxma!

Bəlkə Asuman anası Eminlə danışanda qapının arxasından qulaq asıb ona yazığı gəlmişdimi?

- Mən səni heç vaxt tək qoymayacağam, Emin! Böyüyəndə evlənərik, heç ayrılmarıq.

Emin yeni yarpaqlayan cevic ağacının altındakı quyuya atsınmı özünü? Anası onu qoyub getmişdi. Niyə onu aparmamışdı - şikəst olduğu üçünmü?

- Bu nə sözdü, balam? Oğlanın yeri atasının yanıdı.

Demək, anası qaçdı, amma Emin bir ayağı ilə qaça bilməzdi! Ayağını sürütləyərdi və bununla da özü də bilmədən ardınca başqa şeylər də sürütləyərdi.

"Anası pis qadın olub", "Başqa bir adamı sevir", "Bəs deyirdilər ən çox Emini sevirdi, o adamla qaçıb?"

- Həm də anan səni aparsaydı atam çox kədərlənərdi, bəlkə də qəmdən xəstələnib ölərdi.

Aradan bir il keçməmiş Emin yeni yarpaqlayan ceviz ağacının altındakı quyunu başında ikən Asumanın onu qorumağa çalışan balaca əli bel sümüyünü sığallayaraq:

- Mən səni heç vaxt tək qoymayacağam, Emin!

Kürəyini sığallayan əli kobud şəkildə itələdi - quyuya atılacaq! Birdən boğulsa, canı ağrısa? Yaşamaq istəməzkən anasız yaşamanın yaşamaq olmayacağını, səkkiz yaşından ürəyində bir ağır daş hiss edərək qırx il keçməsinə rəğmən hələ də yaşamağa çalışırdı. Hansı ki, atası bir ildə vaz keçdi, onun qırx ildə vaz keçmədiyindən.

"Hamının keçmişdə qalmış gənclik sevdası, qızlıq həvəsi var. Biz ədəbsizlik edib ərlərimizi, övladlarımızı qoyub gedirik? Aləmdə biabır etdi bizi. Qardaşımı xəstə saldı, bu uşağı şikəst halda bədbəxt etdi. Yazıq deyilmi? Onun halı necə olacaq?".

Sürücü qapını örtəcəkdi ki (bu sürücü çox səmimi, gülər üz biridi. Üzündə yalnız təbəssüm var) qucağında tükləri bir zaman bəyaz olmuş köpək olan, üstü-başı yırtıq, nimdaş olan bir uşaq sürücüyə yalvarmağa başladı:

- Sürücü əmi, nə olar bizi də götür avtobusuna - onsuz ta minməşdi - Beykoza qədər. Bu köpəyi yiyəsinə verim. Çox xəstədi. Sürücü əmi, ölməsin köpək... Nə olar...

Bu bir hekayədir! Emin bəyin illərlə heç dəyişməyən, evdən işə, evdən işə, dostsuz-yoldaşsız, qapısını heç kimin döymədiyi, halını-əhvalını soruşmadığı həyatına qarşı bu uşağın həyatından bir hekayə alınar. Bəlkə bir adam bu hekayəni görər, duyar, qələmi alıb kağıza "tökər". Amma indi yox... Hələ bur uşaq avtobusa minsin.

Avtobusa heyvan mindirmək qadağandır. Pişik, it... Sürücü bu qaydanı uşağı incitmədən ona deyə bilər - həm də uşağın zeytun yaşılı gözlərindən tökülən yaşlara rəğmən.

- Ah, canım? Xəstədir köpəyin?

Emin bəy qarşısında oturan və əlindəki dəftərə nəsə yazan xanım səmimi bir şairin ona misralar həsr etdiyi yaşdaydı... Bu xanımın sözləri ilə (bəlkə də uşağın hekayəsini yazan bu xanım olacaq) tükləri bir vaxtlar bəyaz ikən indi boza çalan köpək, köpəyə sısqa qollarıyla sarmaşan uşaq da sahibsizlikdən qurtuldu. Sürücü yüngülcə baş hərəkəti ilə razılıq verəndən sonra incə bir toxunuşla sonrakı dayanacağa qədər avtobusun qapısını bağlayıb qaza basa bilərdi.

Bu da Anadoluhisarı! Küçənin kənarında Turizm Dərnəyi, dərnəyin təşkil etdiyi şənliyə dəvət edən böyük bir afişada rəngarəng yazı yazılmışdı - "Bütün xalqımız dəvətlidir". Yanında Başbakanın "atalar günü" münasibətilə etdiyi təbrik asılmışdı. Emin bəyin belə burjua adətlərindən xoşu gəlməzdi. Onun düşüncəsinə görə hər itirilən gün ömürdən idi. Qızı təkcə "Analar günü"nü qeyd edər. Asuman qızının verdiyi hədiyyə paketini açanda duyğulanar, səsi titrəyərdi. Ərindən bir neçə kəlmə şirin söz gözləyərkən Emin bəy baş rollarda ana və qızının oynadığı oyun sənəsindən diksinib öz otağına çəkilərdi. Emin bəy dayanacağın şüşəsinə yapışdırılmış kino afişasındakı o filmə də getməyəcək - qoy qızı getsin, axşam yeməyinə də atası ilə göz-gözə gəlməmiş orta təhsilli anasına filmin məzmununu danışsın.

- Bu filmə səni də aparım, ana, çox xoşuna gələcək.

Mənə təklif etməz. Emin bəy o filmə getməsə qızından o təklifi gözləyərdimi? Nə vaxt belə yadlaşdıq bir-birimizə? Hansı ki qızı balaca olanda ona nağıllar danışardı - Dursun kapitanın macəralarını. Görəsən, xatırlayırmı dinləyəndə ağzındakı loxmanı unutduğu Dursun kapitanın macəralarını? Qızımla parklarda qaçıb-oynamasam da ona nağıllar danışardım. Amma o izlədiyi filmi təkcə anasına danışır.

- Gedərik, qızım, mənim üçün də dəyişiklik olar, onsuz evdəyəm...

Emin bəy bu sözlərin özünə aid olduğunu bilsə də, vecinə almazdı - çünki belə söz atmalara baiskar özü idi. Əslində, mən ona söz atmalıyam! Asuman qızını əlindən alıb - anası uşaqlığını almışdı, həyat onu fırladıb bir kənara tolazlamışdı. "Bəlkə mən də gedərəm qızımla, Emin" Asuman dedi. Sığınacaq heç kimim yoxdur! Sığınacaq heç kimim yoxdur!

Uşaq iki addımlıqdakı balıq ətli xanıma sığındı. Qadının yanındakı yerdə oturmuş kostyumlu, qalstuklu, bahalı ətirli mədəni görünüşlü bir kişi uşaqdan ətrafa yayılan ağır qoxuya dözə bilməyib yerindən qalxdı və avtobusun arxa tərəfinə getdi. Narahatlıqla yan-yörəyə baxmağından hiss olunurdu ki, düşəcəyi dayanacağı bilmir.

- Harda yaşayır köpəyin sahibi?

Uşaq köpəyin boynunudakı talismanı göstərib:

- Burda yazılıb, - dedi.

Onatərəf əyilən uşaqdan gələn qoxu qadının gözlərini yaşatdı:

- Aaa, burda "Beykoz konakları" yazılıb. 15F saylı avtobus ordan keçmir axı!

Amma köpəyin boğazındakı talismada Beykoz yazılmışdı. Nə etsin uşaq?

- Nə edək, görəsən? - deyərək qadın baxışlarını sərnişinlərin üzərində gəzdirdi. Qadın əlac tapmaq üçün bir insanla göz-gözə gəlmək istəyirdi. Bu vəziyyət Emin bəyi maraqlandırmırdı. Xanımın baxışları düz qumral saçları çiyinlərinə tökülmüş səmimi, incə, hündür gənc qadının gözlərinə dikildi:

- Nə edə bilərik?

Qara geyimli gənc xanım əlindəki ağır çantaya rəğmən yerindən qalxaraq üzündə təbəssümlə uşağın yanına gəlib talismana baxdı.



*Davamı səhifə 17-də*

(Əvvəli səhifə 16-da)

# SALAM-KALAMSIZ

*hekayə*



- Bir telefon nömrəsi yazılıb burda. - Tasmanı buraxıb köpəyin tüklərini sığalladı - Nə şirinsən sən...

Cib telefonunu çantasından çıxaran gənc qadın bir az əvvəl yerindən durub arxa tərəfə gedən kişinin yerində oturanda uşağın qəlbimdə ümid göyərdi - qadın bəlkə ona kömək edərdi.

Avtobus Dolaybağı dayanacağında dayanmadı. Uşağın ümidlə baxdığı gözəl gənc xanım diqqətlə köpəyin talismanında yazılan nömrəni yığdı. Qısa bir danışıq oldu - konkret. Telefondakı adamla razılaşması yüngül baş hərəkəti ilə anlaşıldı. Danışıq bitəndə balıq ətli xanım, məsələyə laqeyd qalmayan bir neçə yolçu, hətta Emin bəy gənc xanımın uşağa söyləyəcəklərini dinləməyə hazır idilər.

- Sən bu dayanacaqdan sonra, körpünün altındakı dayanacaqda düşəcəksən. Köpəyin sahibi də maşınıyla oraya gələcək, başa düşdünmü?

- Başa düşdüm, bacım.

Uşağın sevincini hələ də nəm olan gözlərindən anlamaq çətin idi. Köpək halsız hala çənəsini uşağın sısqa qoluna dayamışdı. Uşaq onu bütün pisliklərdən qorumağa hazır vəziyyətdə köksünə sıxır, göz yaşları yol salmış yanağını köpəyin kirli tüklərinə toxunduraraq qulağına sevgi sözləri pıçıldayırdı.

Balıq ətli qadın realist idi və reallıq bəzən bir sual şəklində, bəzən də bu suala verilən cavab şəklindədir.

- Sənin atan, anan yaşayırmı, bala? Tanımadığın yerlərdə, tək-başına, bu yaşda...

Uşağın reallığı üç kəlmə qısa cümlədə idi:

- Anam öldü, atam başqasıyla evləndi, ögey anam məni istəmədi.

Emin bəy ilk dəfə uşağın üzünə diqqətlə baxdı. Bu üzdə illər əvvəl anası tərəfindən tərk edilən bir uşağın həyata qəzəblə baxan gözlərini gördü.

Həmin il məktəbə təzə gedirdi Emin. Evə qayıdanda palçıq içində olurdu. O qədər palçığı sol ayağını altında necə sürütləyib evin içinə qədər daşıya bilirdi? Yayda bütün gün küçənin tozuna bulaşmış, saçları, üstü-başı tozlu halda başqa uşaqlar kimi ancaq axşam azanında evə gələndə anası onu birbaşa hamama salardı. Kürəyini, sısqa qollarını ayaqlarını bol köpüklə sabunlayarkən sol ayağına çatanda anasının əli cəldliyini itirər, bu ayağını təsəlli edərcəsinə oxşayaraq sabunlayardı. (Bibisi yuyanda əli toxunmadan ayağı ağrıyar, sızıldamağa başlayardı).

Anasının səsi hamamın divarlarına çırpıla-çırpıla Eminin qulaqlarına çatırdı:

- Böyük adam olacaqsan! Bu xaraba qəsəbədə, atası kimi mənasız məmur olmayacaq mənim oğlum!

Emin anasının atasını sevmədiyini hiss edər, bu kəşfindən gizli bir həzz duyardı. Anası yalnız onu sevirdi; sevgisini atası ilə onun arasında bölmürdü.

Sonra anası getdi. Başqa anaların evlərinin içində danışdıqları uşaqlarının beyninə doldu, ordan da Eminin qulağına qədər gəlib çatdı:

- Anası qaçıb getdi! Əxlaqsız qadın imiş.

Sən demə anası nə onu, nə də atasını deyil, başqa bir kişini sevirmiş.

- Mən səni heç vaxt atmayacağam, Emin!

Amma artıq Asuman da sevmirdi onu. Bəlkə Asuman da onu atıb gedəcək.

- Bəlkə mən də gedərəm qızımla, sən də artıq divarlara “sabahın xeyir” deyərsən, Emin!

Bəs məni heç vaxt atmayacaqdın, Asuman?! Söz vermişdin axı! Uşaq əlini kürəyimə çəkib and içmişdin!

Bura Körfəz dayanacağıdı. Uşaq avtobusda düşüb köpəyi sahibinə verəcək. Sonra qəzəb əks olunmayan gözləri ilə İstanbulun küçələrində anasız-atasız, bəlkə də Emin bəyin uşaq vaxtı oxuyub gizli-gizli ağladığı Kemalettin Tuğcu romanlarında adı keçən körpü altlarında yaşamağa davam edəcək. Amma o romanların axırında qəhrəmanlar xoşbəxt olardı. O qədər dərdən sonar yaxşı bir insan gəlib çıxar, o uşaqlara kömək edər, həyat hamı üçün gözəlləşərdi. Kitabı bağlayanda içiniz rahat olur - artıq uşaq əmin əllərdədi, həyat onu sındırmayıb, küçələr udmayıb, yazarların mərhəmətli qələmi qəddar həyata rəğmən uşağa qıymayıb. Eyni həyat az əvvəl avtobusdan düşən uşağa və Emin bəyə qıyıb! Yazarlar yalançı, həyat mərhəmətsizdi!

Atası kimi qorxaq bir məmur olmadı Emin. Uşaqlığı kimi, sol ayağı kimi zamanın da axsaq-axsaq sürükləndiyi o qəsəbəyə çox bənzəyən, İstanbulun bir kənar məhəlləsindəki Sağlıq Mərkəzində qorxaq, özünə qapanmış bir həkim oldu. Maşını təmirdə olduğuna görə bu gün işə avtobusla gedir.

Avtobus Mihrabat Parkının qarşısından keçir. Parkın qarşısına böyük bir lövhə asılıb:

Axşam ailənizlə gözəl bir gecə

Emin bəy uşaqlığına qayıtmalıdı. Qızıya qürur duyan Asumanın səhərlər böyük maraqla dinlədiyi radio proqramına qonaq olan psixoloqun söhbətlərinə qulaq asırdı. Bu proqramı hazırlayan qızının müəllimi o qədər tələbə arasından asistan olaraq qızını seçmişdi - söylədiyinə görə bu şərtdi. (Asuman ərini psixoloqun yanına getməyə nəinki razı sala bilməz, heç bu barədə söhbət aça bilməzdi).

Universiteti bitirmək üzrə olan sağlam bir qızı (peyvəndləri vaxtlı-vaxtında vurulmuşdu), o qədər qaşqabaqlı halına, səhərlər “sabahın xeyir”, axşamlar evə qayıdanda “xoş gəldin” deyənlərə cavab verməməsinə, ad günlərini, evlilik il dönümlərini laqeyliklə qarşılamağına rəğmən süfrədən qalxarkən bircə dəfə də olsun “ sağ ol” deməyi, hələ də onu tərk etməyən arvadı onu qoyub gedərsə necə olacaqdı?!

Özlərinə aid bir evi, maşını, cəmiyyətdə hörmətli bir işi və ardınca sürüklədiyi ayağı və bir də keçmişi vardı Emin bəyin. Asuman o keçmişdən çıxıb arvadı olmağı qəbul edən, ona bir qız övladı bəxş edəndi.

Asuman həm şikəst bir keçmişdir, həm ona aydınlıq bir gələcək olmaq üçün illərlə çırpınandı.

Kanlıca dayanacağı. Tarixi Kanlıcada açıq Bufet - Səhər yemək keyfi

Adam başına on lira. Uşaqlar üçün pulsuzdu.

Dostların qaçarkən keyfn istəyən kimi qaça bilməməkdi uşaqlıq Kanlıcada səhər yeməyi yemədi heç, yeməyəcək... Emin bəy indi keçməkdə olduğu və balıq ətli qadının da son anda qərar verib tələm-tələsik endiyi Çubuklu Caddəsində, saysız-hesabsız tilovun dənizə atıldığı, tilova düşən peşmanlıqla çırpınan balıqların üç-üç, beş-beş vedrələrə doldurulduğu sahil yolunda, gün batanda bir qoluna arvadı, digərinə qızı girib yay axşamları gəzməyəcək.

15 F avtobusu dolanbacları, enişləri-yoxuşları şütüyərək keçərkən, sərnişin mündirib, sərnişin düşürdüyü Dedeloğlu dayanacağından, Beykoz Bələdiyyəsinin üzgüçülük hovuzunu hörmətli Beykozluların xidmətinə verdiyinin müjdələyən elanın qarşısından keçib Paşabağçaya çatanda üzündən təbəssüm əskik olmayan sürücüylə vidalaşdı.

Küçəyə yapışdırılmış bez afişada böyük qırmızı hərflərlə yazılmışdı:

Uşaqlarınız əmin əllərdə - Xəstəxanamızın Sünnət kompaniyası başlayıb

Bu hansı xəstəxana idi? Dəvət edildiyi halda açılışına getmədiyi, çiçək belə göndərmədiyi, sahibi tibb fakultəsindən dostu olan?

- Heç kimin toyuna, nişanına, açılış mərasimlərinə getmirik, Emin. Bəhanə uyduranda utanıram. Qızımız evlənəndə insanlara dəvətnamə verməyə üzümüz olmayacaq!

Tibb fakültəsindəki toysuz, məclissiz sünnət ediliyini?

Anası hələ getməmişdi, o xaraba qəsəbədə idi. Bu kütləvi sünnət - Bələdiyyənin xidməti idi. Təcrübəli həkimlər idi, uşaqlarınızı arxayınlıqla ona təslim edə bilərdiniz. Digər uşaqlar sirə qədəm qoyanda Emin sol ayağını sürüyərək ancaq yatağın altına qədər girə bilmişdi. Anası yatağın altından çəkib çıxaranda sol ayağını incitmədən sağlam olanı tutaraq çəkmiş, və onu yola gətirməyə çalışmışdı.

- Hardan bilirsən incitmədiyini? Sən qızsan, sünnət olmusan ki?

- Analar hər şeyi bilir!

- Pis Asuman, dəli Asuman, anama niyə gizləniyim yeri söylədin? Bir qıza inanılmayacağını öyrəndi Emin. Asumanın üzünə böyük bir tüpürcək yapışdı.

- Ooh, - dedi Asuman, - baxarsan, qoy kəssinlər, heç vecimə gəlməyəcək!

Həkimin qarşısına ilk oturan Emin olmuşdu. Həmin yay məhəllədə ilk sünnət olan uşaq idi.

Asuman onu satdı, sonra anası tərk etdi, sonra atası öldü, uşaqlığı öldü, sonra İllər sonra qayıdıb gələn bir ana, hələ yaşayan bir ana uşaqlıq yaralarını sağalda bilmir!

(Niyə gəldin, qadın Bu qədər ildən sonra niyə gəldin? Tez çıx get! Uğruna bir oğul verdiyin həyatına geri dön! Xəstələrin qarşısında tərbiyəmi pozmadan get! Bu qədər ildən sonra nəyi dəyişdirəcəksən - ikimizin də saçları ağappaq, uşaqlığım çoxdan məni tərk edib gedib, sən uşaqkən atıb getmisən, indi niyə gəldin, qadın! “Oğlum həkimdi, şikəsti, amma həkimdi” - demək üçünmü gəldin? Niyə gəlin, qadın!)

Liseydən sonrası başqa şəhərlərə oxumaqdı. Səliqəsiz tələbə yataqxanalarında qalmaqdı.- Əsgərliyini də çəkəcəksən.

Asumanın əlindən yemək də gəlir, tikiş də gəlir, üzü hər zaman gülər, sağlam, gənc ayaqları ilə ikinizin adına xoşbəxt bir gələcəyə qaçar.

“Aman, həkim, canım-cicim həkim, dərdimə bir çarə ”

Həkim Emin öz dərdinə çarə tapmazkən, başqalarına

İllah ki bir mahnıları olsun istəyərdi Asuman:

- Bir mahnı var - “İkimiz bir fidanıq”, o bizim mahnımız olsun, Emin.

Arxanca baxıb fidan kimi bir dəliqanlıdı, demədilər qızlar Qızlar yanınıdan keçəndə gülümsəyərək “Doktor Civanım” türküsünü oxumadılar. Sən heç kimin bəyaz atlı şahzadəsi olmadın. Heç kimin üzünə belə baxmadığı çirkin Asumanın da yazığı gəldi sənə.

- Xoşbəxt olmaq insanın öz əlindədir, ata, bardağın dolu tərəfini görməyə çalış

Müəllimləri ilə apardığı radio proqramından öyrəndikləri ilə psixolojilik görüntüsü verən çoxbilmiş qızı bardağın boş olduğunu - hər zaman da boş olduğunu ürəyindəki çata görə heç dolmadığını necə biləcək?! Emin bəy o radio proqramını heç dinləmədi, dinləməyəcək! Artıq qız məzun olmamışdan əvvəl yazdığı “Yetkin insanların psixologiyasında uşaqlıq çağı travmalarının izləri” kitabını yayımlamaq üçün nəşriyyatlarla görüşmüşdü. Emin bəy yemək yeyərkən dəfələrlə bu barədə qızının anası ilə etdiyi söhbətlərə qulaq kəsilmişdi. Uşaqkən atası onu kürəyinə mindirib at kimi gəzdirmədi, əlinən tutub Lunaparka aparmadı. Emin bəy qızına borclu idi - borcunu bu kitaba “giriş bölümü” olaraq ödəyəcək.

Haydı artıq Paşabağçanı arxada qoydun, həyatı arxada qoydun, Emin, enmək üçün hazırlaş, yavaş-yavaş qalx - sol ayağına diqqət et! Sürücü mədəni və düşüncəlidi; sənin vəziyyətində olanın qabaq qapıdan düşməsinə etiraz etməz. Amma yenə də düyməyə basmağı unutma. Kaş ki sürücüyə təşəkkür edəydin - avtobusdan düşəndə səbirlə gözlədiyinə görə. Asumandan əsirgədiyin bütün təbəssümləri, təşəkkürləri toplayıb sürücünün qucağına qoyardın.

Yaşıl işığı gözlə. “Keç” deyəcək sənə, “keç” Uşaqlığını keç, gəncliyini keç Amma əvvəlcə hazırlaş, orta yaşın tam ortasından irəliyə doğru bax, gələcəyə bax. Bələdiyyə binasının divarındakı böyük yazını gör:

Gələcək nəsillərimizə yadigar əsərlər qoyuruq

Emin bəy, gələcəyə sən nə yadigar qoyursan? Bir işim? Sağlam nəsillər?

Asuman getməsin!

İri cüssəli uşaqlar ona istehza edərkən cılız gövdəsiylə onlara qarşı çıxan Asuman!

- Mən səni heç vaxt atmayacağam, Emin!

Asuman getməsin!

Bəlkə mən də gedərəm qızımla, sən də artıq divarlara “sabahın xeyir” deyərsən, Emin!

Asuman getməsin!

Onu Sol ayağı ilə sol köksünün üzərində hələ qapanmamış, hələ də qanamaqda olan, ağrıyan yarası ilə tənha qoyub getməsin Asuman!

**Türkiyə türkcəsindən uyğunlaşdıran: Təranə Musayeva**